## Azərbaycan dili

1. Hansı sözdə həm səsdüşümü, həm də səsartımı hadisəsi baş verir?
A) dostlaşmaq B) fədakarlıqla
C) sədrlik D) dairəvi
E) sərbəstliklə

2. Sözlərin mənasına görə ardıcıllığı müəyyən edin.
- zərif, incə
- top kimi sarınmış sap, ip
- çiyidi təmizlənmiş pambıq
- namus, həya, məsumluq

1. ismət 2. yumaq
3. mahlıc 4. nəfis
A) 4,2,3,1 B) 1,2,3,4 C) 2,3,4,1
D) 3,4,2,1 E) 4,3,2,1

3. “Döyüşçü, döyüşkən, döyüşdəki” sözləri haqqında doğru fikirləri müəyyən edin.
1. Eyniköklü sözlərdir.
2. Hər üç söz isimdən düzəlib.
3. Sözün kökü ilə yarandığı nitq hissəsi eynidir.
4. Sözlərin kökü çoxmənalılıq xüsusiyyətinə malikdir.
5. Sözlərin hər birində iki leksik şəkilçi var.
A) 1,2,3 B) 2,3,4 C) 1,4,5
D) 1,2,5 E) 3,4,5

4. Verilmiş nümunə ilə bağlı düzgün fikirləri müəyyən edin.
*Əlim köməyim olsun,*
*Elim köməyim olsun.*
*Elimə yük olanda,*
*Ölüm köməyim olsun.*
*(Xudu Məmmədov)*
1. Yalnız isim və feil işlənmişdir.
2. Təsriflənən feillər müxtəlif şəkillərdədir.
3. İsimlər adlıq, yiyəlik və yönlük hallardadır.
4. Sadə, düzəltmə və mürəkkəb sözlər işlənmişdir.
5. Feili bağlama tərkib yaradıb.
A) 1,2,3 B) 1,4,5 C) 3,4,5
D) 2,3,5 E) 1,2,4

5. Aşağıdakı sxemə uyğun gələn ismi müəyyən edin.

A) sinifdəkilərin B) qorxuludur
C) ağartını D) çağırışçıların
E) danışığımıza

6. Hansı sıradakı bütün sözlər həm əsas, həm də köməkçi nitq hissələri kimi işlənə bilir?
A) başqa, necə, belə, gəl
B) tək, ki, qoy, elə
C) özgə, və, düzü, bax
D) axı, görünür, savayı, gərək
E) görə, gör, bəlkə, ən

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

7. “*Görünür, onlar da bilmirlər ki, Azərbaycan xalqı mehriban və səmimi olduğu kimi, həm də qoçaqdır*” cümləsindəki köməkçi nitq hissələrinin ardıcıllığını müəyyən edin.
A) modal söz, ədat, bağlayıcı, bağlayıcı, qoşma, bağlayıcı
B) bağlayıcı, bağlayıcı, qoşma, bağlayıcı
C) ədat, bağlayıcı, bağlayıcı, qoşma, bağlayıcı
D) modal söz, bağlayıcı, bağlayıcı, bağlayıcı, qoşma, bağlayıcı
E) ədat, ədat, bağlayıcı, bağlayıcı, qoşma

8. Verilmiş cümlədə hansı sözlər arasında sintaktik əlaqə ***yoxdur***?
*“Olimpiadada iştirak edənlərə bu gün mükafat verdilər.”*
A) olimpiadada – mükafat
B) mükafat – verdilər
C) iştirak edənlərə – verdilər
D) olimpiadada – iştirak edənlərə
E) bu gün – verdilər

9. Hansı cümlələrdə zərfliyin əlavələri işlənmişdir?
1. Balıqçılar səhər tezdən – günəş doğmadan dənizə çıxdılar.
2. Yuxarı – dağa qalxarkən asta-asta qar yağmağa başladı.
3. İçəri – otaq çox qaranlıq idi.
4. Müəllim kürsüdə rəvan – əsl natiq kimi danışdı.
5. Aşağıda – həyətdə söhbət edənlər atama köməyə gəlmişdilər.
A) 1,2,3 B) 1,4 C) 2,4,5
D) 3,4 E) 1,3,5

10. Verilmiş cümlə ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.
*“Xülasə, bizim məktəb həmin dağın ətəyində yerləşir.”*

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Müəyyən şəxsli cümlədir.<br>2. Cümlədə iki təyin var.<br>3. İsmi birləşmə ilə ifadə olunan iki cümlə üzvü var. | 4. Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədə olmayan söz işlənmişdir.<br>5. Xəbər şəxsə və kəmiyyətə görə mübtəda ilə uzlaşır.<br>6.  sxeminə uyğundur. |

A) 3,4,5 B) 1,3,5 C) 2,4,6
D) 1,2,5 E) 1,2,6

t.me/BilikTeam1

11. Hansı cümlədə cümlə üzvləri ilə qrammatik cəhətdən ***əlaqələnməyən*** iki söz işlənmişdir?
A) Olmaya bu kəndin palçığı, qardaş.
B) Cahandar ağa uzun sözü qısa eləyib tüfəngini əlinə aldı.
C) Elsevər bəy, uzun sözün qısası, sizin dedikləriniz mənim ağlıma batmadı.
D) Təbii ki, sizə təklif etdiyimiz məhsulların hamısı təbii məhsullardır.
E) Qardaş, gəlişindən xəbər tutmamışam.

12. “*Bir az da belə sürsəm, atı çatladaram”, – deyə Cahandar ağa atın cilovunu çəkdi*” cümləsi ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Bu cümlədə vasitəsiz nitq tabeli mürəkkəb cümlədir.
B) Müəllifin sözündə və vasitəsiz nitqdə tamamlıq işlənmişdir.
C) Vasitəsiz nitqdə feilin xəbər və şərt şəkli işlənmişdir.
D) Mürəkkəb adla ifadə olunan cümlə üzvü var.
E) Müəllifin sözü xəbəri frazeoloji birləşmə ilə ifadə olunan müəyyən şəxsli cümlədir.

13. Hansı tabesiz mürəkkəb cümlənin tərkibində qeyri-müəyyən şəxsli cümlə işlənmişdir?
A) Bol yem lazımdır, yoxsa heyvanlar qırılacaqlar.
B) Yuxum qaçmışdı, yata bilmirdim.
C) Atalar demişdir, çay qırağında quyu qazmazlar.
D) Yaxşı hazırlaşmağıma baxmayaraq, yüksək bal vermədilər.
E) Əşrəf ətrafı dinlədi, onu asta səslə çağırırdılar.

14. Verilmiş cümlələrə əsasən cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.
**I** Eldar büdrəyib yıxıldı, amma tez də ayağa qalxdı.
**II** Eldar hərçənd yıxılmışdı, ancaq heç bir yeri ağrımırdı.

| I | II |
|---|---|
| 1. Tabesiz mürəkkəb cümlədir.<br>2. İki zərflik var.<br>3. Həmcins xəbərli sadə cümlədir. | 4. Xəbərlər eyni mübtədaya aiddir.<br>5. Tabeli mürəkkəb cümlədir.<br>6. “Ancaq” bağlayıcısı həmcins üzvləri bağlamışdır. |

A) 1,2,3  B) 2,3,5  C) 4,5,6
D) 1,4,5  E) 2,3,6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

15.  sxeminə malik olan hansı tabeli mürəkkəb cümlənin baş cümləsi şəxssiz cümlədir?
A) Dan yeri sökülürdü ki, qapı astaca döyüldü.
B) Mənə nə demişdinizsə, onları gətir.
C) Ənvərin yadına düşdü ki, böyük çillənin üçüncü günüdür.
D) Martın əvvəlləridir, həm də yazın nəfəsi duyulur.
E) Xəbər verdilər ki, məni mərkəzə çağırırlar.

16. Verilmiş vasitəsiz nitqli cümlədə buraxılmış durğu işarələrinin ardıcıllığını müəyyən edin.
*Lalə başını qaldırmadan Xala Leyla barədə fikrin nədir deyə soruşdu*
A) qoşa nöqtə, dırnaq, sual, dırnaq, tire
B) dırnaq, vergül, vergül, tire, dırnaq
C) qoşa nöqtə, dırnaq, vergül, sual, dırnaq, tire
D) tire, vergül, sual
E) qoşa nöqtə, tire, vergül, tire

17. Verilmiş nümunələrdə cümlə üzvlərinin həmcinsliyi ilə bağlı ***səhvləri*** müəyyən edin.
1. Bu musiqidə yarpaqların tökülüşünü, buludların uçuşunu görəcəyik – tamamlıq.
2. Aydını, Azəri görəndə sevindiyimdən az qala uçurdum – tamamlıq.
3. Ana məlahətlə, asta-asta layla deməyə başladı – zərflik.
4. Bu həyətdə hər şey: qurumuş ağaclar da, uçmuş divarlar da mənə keçmişi xatırladırdı – mübtəda və təyin.
5. Səhər açılır, adamlar bir-bir küçədə görünürdülər – xəbər.
A) 1,2,3  B) 3,4,5  C) 1,2,4
D) 2,4,5  E) 1,3,5

18. Hansı cümlədə sintaktik əlaqənin tərəfi ***olmayan*** söz də işlənmişdir?
A) Şagirdlər şəhidlər xiyabanını ziyarət etdilər.
B) Yeni binaların dizaynı çox gözəldir.
C) Bulağın şırıltısı quşların səsinə qarışmışdı.
D) Bu işləri görməyi sizə tapşırıram.
E) Deyilənə görə, yarış təxirə salınmışdır.

19. Verilmiş cümlədə hansı cümlə üzvü ***yoxdur***?
*“Mən nağılı olmuş hadisə kimi danışanda hamının marağına səbəb oldu.”*
A) mübtəda, təyin  B) tamamlıq
C) zərflik  D) tamamlıq, təyin
E) xəbər

20. Sual işarəsinin yerinə yazıla bilər:




A) görüşərkən B) birləşdiyi
C) gəzdirəndə D) deyildiyi
E) baxılan

21. “İdi, imiş, isə” hissəciklərinə aid ortaq fikirləri müəyyən edin.
1. Qrammatik şəkilçilərə qoşulur.
2. İnkar şəkilçilərinə qoşulmur.
3. Şəxs şəkilçilərindən sonra işlənir.
4. Məsdər, feili sifət və feili bağlamalara qoşula bilir.
5. Müxtəlif nitq hissələrinə artırıla bilir.
A) 1,2,3 B) 3,4,5 C) 1,2,5
D) 2,3,4 E) 1,4,5

22. Hansı yazı növünə aid nümunə ***verilməyib***?
- Hindu tayfalarının başqa tayfaya balıqqulaqlarından ibarət kəmər göndərməsi
- Yolun kənarında yanacaqdoldurma aparatının şəkli
- ——— ═══
- $H_2O$

A) əşyəvi yazı
B) şəkli yazı
C) fikri yazı
D) hərfi yazı
E) əşyəvi, şəkli yazı

**Açıq tipli test tapşırıqları:**

23. Hansı sözlər klasteri tamamlaya bilər?




1. gözləyərkən 2. almayacaq
3. qorxmurlar 4. buludlaşmaq
5. gəlirsiniz 6. tumarlanmaq

24. Hansı nümunələrdə -dır[4] icbar növün şəkilçisi ***deyil***?
1. bezdirmək 2. düzdürmək
3. söndürmək 4. səsləndirmək
5. yazdırmaq

25. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

| ***Mühakimə*** | ***Nümunə*** | ***Doğru /yanlış*** |
|---|---|---|
| 1. Müəyyən şəxsli cümlələrdə mübtəda olmaya da bilər. | Gözləməkdən gözümün kökü saraldı. | doğru |
| 2. Baş və budaq cümlələrin əlaqələnməsində tabesizlik bağlayıcısından da istifadə edilə bilər. | Hərçənd qar yağırdı, amma soyuq deyildi. | doğru |
| 3. Feilə eyni zamanda iki müxtəlif məna növünün şəkilçisini artırmaq olur. | qızdırılmaq, endirilmək | yanlış |
| 4. Atalar sözləri və məsəllərin hamısı ümumi şəxsli cümlələrlə ifadə edilmir. | Acı danışan şirin söz eşitməz. | yanlış |
| 5. Eyniköklü sözlər quruluşca düzəltmə olur. | qaldırmaq, qalıcı | doğru |

26. Nümunələrdə altından xətt çəkilmiş hansı sözün işləndiyi cümlədə iki müxtəlif nitq hissəsi kimi təhlil edilə bilər?
1. Səndən <u>sonra</u> götürərəm.
2. Burada səndən <u>başqa</u> kim var?
3. Yoldan durandan <u>bəri</u> heç kəs gəlməyib.
4. Düzü, deyiləni <u>yaxşı</u> anlamadım.
5. Stol arxasında oturub <u>yazarlar</u>.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

27. Uyğunluğu müəyyən edin.
*Cümlələrdə "elə" sözü:*
1. Ədat kimi işlənmişdir.
2. Feil kimi işlənmişdir.
3. Əvəzlik kimi işlənmişdir.
a. Elə bu gün tanış olmuşuq.
b. Dərslərini elə, sonra həyətə düş.
c. Oğru elə bağırdı, doğrunun bağrı yarıldı.
d. Elə insanla dostluq et ki, səni yarı yolda qoymasın.
e. Yaxşı elə yaxşıdır.

**Mətni diqqətlə oxuyun və 28-30 saylı tapşırıqları yerinə yetirin.**

1. Napoleon Parisdən keçəndə ▲ izdihamı yarmağa çalışan yaşlı bir adam çox çətinliklə küçənin kənarına gəldi. 2.Ancaq küçəni nəzarət altına alan əsgərlər ona keçməyə imkan vermədilər. 3.Çox keçməmiş ■ imperatorun hüzuruna çıxmağa çalışan bu yaşlı adam Napoleonun da könlünü cəlb etdi. Və əsgərlərə: "Buraxın, gəlsin!" – deyə əmr verdikdən sonra fəxri qarovulun qarşısında durub ona: "Diqqət! Hazır ol! Fransa gəlir!" – deyə hərbi salam verdi
– Bu yaşlı adam ........

28. Əvvəlində işarələr qoyulmuş sözlərin mənalarını yazın.
▲ – ________________________
■ – ________________________

29. Əvvəlində ərəb rəqəmi yazılmış hansı cümlədə məzmuna uyğun *olmayan* söz işlədilmişdir? Həmin sözü uyğun sözlə əvəz edərək cümləni yenidən yazın.
Cümlə: __________________________
Cümlənin düzgün yazılmış variantı:
__________________________________

30. Mətnin məzmununa uyğun mətni tamamlayın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Tarix

31. İbtidai icma quruluşunun e.ə XII – VIII minilliklərini əhatə edən dövr üçün xarakterikdir:
1. Qobustan sakinlərinin ovçuluq və yığıcılıq ilə məşğul olması
2. Əhalinin böyük bir hissəsinin oturaq həyata keçməsi
3. Metallurgiyanın meydana gəlməsi
4. Toxa əkinçiliyinin inkişaf etməsi
5. İnsanların maddi nemətlər istehsal etməyə başlaması
A) 1,5 B) 2,3,4 C) 1,3,4
D) 1,4 E) 2,3,5

32. Parisdə Krım müharibəsinin nəticələrinə həsr olunmuş sülh konfransına ***aid deyil:***
A) Qara dəniz bütün dövlətlərin hərbi gəmilərinə qapalı elan edildi
B) Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququnu itirdi
C) Vyana konqresindən sonrakı güc tarazlığı yenidən nizama salındı
D) Balkan yarımadası və Osmanlı ərazi bütövlüyü konfransın iştirakçısı olan Avropa dövlətlərinin ortaq təminatı altına alındı
E) Qars, Ərdəhan, Batum, Rusiyaya ilhaq edildi

33. Türk qoşunları tərəfindən ingilis ordusunun məğlub edildiyi döyüş:
A) Yutlandiya B) Somma
C) Marna D) Kutül – Amarə
E) Sarıqamış

34. Azərbaycanın 80-90-cı illərində baş vermiş hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:
1. "Azərbaycan Respublikası Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi
2. Əbdürrəhman Vəzirovun Birinci katib vəzifəsinə təyin edilməsi
3. "Azərbaycan SSR-in suverenliyi haqqında Konstitusiya Qanunu" qəbul edilməsi
4. Prezident vəzifəsinin təsis edilməsi
A) 4,3,2,1 B) 1,3,4,2 C) 2,3,4,1
D) 3,4,2,1 E) 4,1,3,2

35. Quba və Lənkəran xanlıqları üçün ümumi cəhət:
A) "Bayat savaşı"da iştirak
B) Qarabağ xanlığından asılılığın qəbul edilməsi
C) "Andlı öhdəlik" sənədinin imzalanması
D) I Rusiya – İran müharibəsi illərində ləğv edilmələri
E) Gülüstan müqaviləsinə görə Rusiya tərəfindən işğalının tanınması

36. Verilən xüsusiyyətlərin aid olduğu Azərbaycan şəhərini müəyyən edin:
- *Bir müddət Şəmsəddin Eldənizin iqamətgahı bu şəhərdə yerləşirdi.*
- *Rüstəm padşah Baysunquru bu şəhərdə məğlub etmişdi.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

37. Qaraqoyunlu dövlətinə ***aid deyil:***
A) Gürcü çarı Konstantinin məğlub edilməsi
B) Ordunun əsasının elatlardan toplanan döyüşçülərdən təşkil edilməsi
C) Mərkəzləşmiş dövlətin qurulması
D) Teymuri Əbu Səid ilə müqavilə bağlanması
E) Baharlı sülaləsi tərəfindən idarə edilməsi

38. XV əsrdə inşa edilmiş memarlıq nümunəsidir:
A) Şeyx Cüneyd məqbərəsi
B) Əlincə çayı üzərində körpü
C) Bakının şərq darvazaları
D) Həşt-Behişt saray kompleksi
E) Ordubad şəhərində örtülü bazar

39. II Aleksandrın təhkimçiliyin ləğv edilməsi barədə verdiyi “Əsasnamə”yə ***aid deyil:***
A) Təhkimli kəndlilər şəxsi azadlıq əldə etdilər
B) Kəndlilərə əmlaka sahib olmaq hüququ verildi
C) Kəndli pay torpağını əldə etmək üçün dövlətdən aldığı borcu 49 ilə qaytarmalı idi
D) 1861-ci ildə qəbul edildi
E) 21 yaşına çatan və hərbi xidmətə yararlı olan bütün kişilər orduya çağırıldı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

40. Tarixi hadisələri xəritədə rəqəmlər ilə işarələnmiş xanlıqlara uyğunlaşdırın:




a. Gilgilçay üzərində rus qoşununu məğlub etdi
b. Kürəkçay müqaviləsini imzaladı
c. 1806-cı ildə ləğv edilərək Rusiyanın əyalətinə çevrildi
d. Sərdarabad döyüşü nəticəsində ruslar tərəfindən tutuldu

A) 1-a; 2-b; 3-c; 4-d
B) 1-b; 2-d; 3-c; 5-a
C) 2-d; 4-a; 3-b,c; 5-d
D) 1-a,b; 2-d; 3-c; 4-a
E) 3-b; 4-d; 1-c; 5-a

41. Uyğunluğu müəyyən edin:

**Azərbaycan 20-30-cu illərdə**

| **1.** Sənayeləşdirmə | **2.** Yeni iqtisadi siyasət |
|---|---|
| a. Ərzaq sapalağı ləğv edildi<br>b. Nuxa istilik elektrik stansiyasının tikintisi başa çatdı<br>c. Xırda kəndli təsərrüfatı ümumi təsərrüfatlarda birləşdirildi | a. Bakıda və Tovuzda sement zavodu işə başladı<br>b. Kəndlilərdən ərzaq vergisi yığılmağa başladı<br>c. Taxıl ticarəti dövlət inhisarına alındı |

A) 1-b; 2-a,b B) 1-a,c; 2-b C) 1-c; 2-a
D) 1-c; 2-a,b E) 1-b; 2-a

42. Azərbaycanın İkinci Dünya Müharibəsi illəri tarixinə ***aid deyil:***
A) İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilməsi
B) Dünya tarixində ilk dəfə neft sisternlərin gəmilərin arxasına bağlanaraq daşınması
C) Yüksəkoqtanlı aviasiya yanacağının hazırlanması
D) Pasport sisteminin tətbiq edilməsi
E) 77-ci diviziyanın yenidən komplektləşdirilməsi

43. Manna dövlətinin mövcudluğu dövrünə aiddir:
A) Astiaqın zərdüşt kahinləri sayılan maqlar ilə yaxınlaşması
B) Midiyanın Assuriya əsarətindən azad olması
C) Assurların Şuşarra vilayətini itirməsi
D) III Daranın öldürülməsi
E) Azərbaycanın şimalında müstəqil dövlətin yaranması

44. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Repressiya illərində cəzaya məruz qalanlara bəraətvermə prosesi başladı
b. Azərbaycan Kommunist Partiyası MK-nin birinci katibi seçilmişdi
c. Bakının beynəlmiləl şəhər kimi Azərbaycanın tərkibindən çıxarmaq planı pozuldu
d. Bakı Məişət Kondisionerləri zavodu tikildi
A) 1-a; 2-c,d; 3-b
B) 1-b,c; 2-d; 3-a
C) 1-a,c; 2-d; 3-b
D) 1-d; 2-b; 3-a
E) 1-b; 2-c; 3-d

45. Xəritədə ulduz ilə işarələnmiş qədim dövlətin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. "Qırmızıqaşlılar" üsyanının baş verməsi
2. E.ə II yüzillikdə dünya ticarət yollarına çıxış əldə etdi
3. İrsi hüquq və vəzifələri olan insan təbəqələri – kastalar mövcud idi
4. E.ə II yüzillikdə ayrı-ayrı dövlətlərə parçalandı
A) 3,4
B) 1,3
C) 2,4
D) 1,4
E) 1,2

46. *İslam mənbələrində Əfrasiyab sülaləsi kimi tanınırdılar. İslam dinini ilk qəbul edən dövlətlərdən biri olmuş, islamın rəsmi din kimi qəbul edilməsi ilə Türküstan ərazisində yaşayan əhalinin böyük əksəriyyəti bu dini qəbul etmişdi.*
Mətndə bəhs edilən dövlət ilə Səlcuq imperatorluğu üçün oxşar cəhət:
1. Dövlətin iki hissəyə parçalanması
2. XIII əsrin əvvəllərində süquta uğramaları
3. Qarakitaylar ilə mübarizə
4. Bizansın məğlub edilməsi
A) 1,3
B) 1,2
C) 3,4
D) 2,4
E) 2,3

47. Uyğunluğu müəyyən edin:




A) 3,6
B) 2,5
C) 2,6
D) 1,4
E) 1,2

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

48. Səfəvilər dövlətinin XVI əsrin 70-ci illəri və XVIII əsrin 30-cu illəri tarixinə aid oxşarlığı müəyyən edin:
A) Osmanlı qoşunları üzərində qələbə qazanılması
B) Rusiya ilə müqavilə imzalanması
C) Car - Balakəndə üsyanın yatırılması
D) Azərbaycan adlı əyalətin yaradılması
E) Xəzərboyu ərazilərin Rusiyanın əlinə keçməsi

49. Səbəb – nəticə əlaqələrinin doğru göstərildiyi bəndləri müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Katoliklər ilə protestantlar arasında mübarizə | "Otuzillik" müharibənin başlanması |
| 2 | Osmanlının Kiçik Asiya və Suriyadan keçən ticarət yollarını öz əlinə alması | Şərqə doğru xaç yürüşlərinin başlanması |
| 3 | Lüterin fikirlərinin "95 tezis" adı ilə çap edilməsi | Almaniyada indulgensiya alverinin genişlənməsi |
| 4 | Auqsburq sülhünün imzalanması | Almaniyada dini müharibəyə son qoyulması |
| 5 | XVI yüzillikdə odlu silahların hazırlanması | Feodal cəngavər süvarisini odlu silahlı muzdlu ordunun əvəz etməsi |

A) 1,2,3 B) 2,3,4 C) 1,4,5
D) 2,4,5 E) 1,2,5

50. ABŞ ilə İngiltərə arasında 1783-cü il müqaviləsinin imzalandığı dövlət:




A) 1 B) 2 C) 3 D) 4 E) 5

51. "Müqəddəs Birlik" ilə aparılan müharibələr nəticəsində məğlub olan Osmanlı imperiyası:
1. Kiçik Qaynarca sülh müqaviləsini imzaladı
2. Krım xanlığını itirdi
3. Strateji əhəmiyyəti olan Kipr adasını itirdi
4. "Durğunluq" dövründən "geriləmə" dövrünə qədəm qoydu
5. Mərkəzi Avropadakı ərazilərin çox hissəsini qalib dövlətlərə güzəştə getməli oldu
A) 4,5 B) 1,2 C) 1,3,4
D) 2,3,5 E) 1,5

52. Bəndlərdən biri Vaşinqton konfransının nəticələrinə aiddir:
A) Mandat sistemi ilə torpaqların bölüşdürülməsi
B) Dəniz silahlarının məhdudlaşdırılması haqqında müqavilə
C) Millətlər Cəmiyyətinin yaradılması
D) Elzas və Lotaringiyanın Fransaya qaytarılması
E) ABŞ-nin Millətlər Cəmiyyətinə daxil olması

**Açıq tipli test tapşırıqları:**

53. Almaniya və SSRİ -yə aid ümumi cəhətlər:
1. Mandat sistemi əsasında torpaqlarının bölüşdürülməsi
2. Brest – Litovsk sülhünün bağlanması
3. Millətlər Cəmiyyətinə daxil edilmələri
4. "Molotov – Ribbentrop paktı"nın imzalanması

54. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Heysam ibn Xalid özünü müstəqil hakim elan etdi | Haşimilər sülaləsi hakimiyyətə gəldi |
| 2 | Yusif ibn Əbu Sac hakimiyyətə gəldi | Sacilər dövləti xilafətin asılılığından çıxdı |
| 3 | Sultan Toğrul Təbrizi tutdu | Rəvvadilər müstəqilliklərini itirdi |
| 4 | Didqori döyüşü baş verdi | Tiflis müsəlman əmirliyi ləğv edildi |
| 5 | Şəddadilərin ərazisində oğuz türkləri məskunlaşdı | Səlcuq dövləti ilə münasibətlər kəskinləşdi |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

55. II Rusiya – İran müharibəsi dövrünə uyğun gəlir:
 1. Zəyəm döyüşündə Qacar qoşununun məğlubiyyəti
 2. Sultanbud döyüşü
 3. Cavanbulaq və Sərdarabad döyüşləri
 4. Urmiya və Ərdəbilin ruslar tərəfindən işğalı
 5. Şamaxı xanlığının ləğv edilməsi

56. I Mətndə verilən prosesdən fərqli olaraq II Mətndə bəhs edilən proses üçün xarakterikdir:
 **Mətn-1**
 *Tiryək ticarətinin qadağan edilməsi, əcnəbi tacirlərdən bu zərərli məhsulun idxalı və ixracı ilə məşğul olmayacaqları barədə iltizam tələb edilməsi İngiltərə ilə münasibətləri pisləşdirdi*
 **Mətn-2**
 *İngilis müstəmləkəçiliyi əleyhinə üsyan başlayır. Sıravi əsgərlərin yeni patronların istifadəsindən imtina etməsi üsyana bəhanə oldu. Döyüş zamanı əsgərlər inək və donuz piyi ilə yağlanmış bağlamanı dişləri ilə cırmalı idilər. Bu da onların dini inancına zidd idi.*
 1. İngilislər tərəfindən məğlub edilmələri
 2. Böyük Moğol dövlətinə rəsmən son qoyulması
 3. Nankin sülh müqaviləsinin imzalanması
 4. İngilis – Çin münasibətlərinin pisləşməsi
 5. Sipahilərin məğlub olması

57. Uyğunluğu müəyyən edin:
 *XIX yüzilliyin birinci yarısında:*
 1. ABŞ
 2. Böyük Britaniya
 3. Fransa
 a. Vaterloo döyüşündə məğlub oldu
 b. Dünyada ilk dəmir yolu çəkildi
 c. Kanadaya dominion hüququ verdi
 d. “Monro doktrinası” irəli sürdü
 e. “Homstedlər” haqqında qanun qəbul edildi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Restavrasiya kraldan daha çox, parlamentin təmsil etdiyi birləşmiş sinfin restavrasiyası idi. Parlament kral tərəfindən çağırılmamışdı, əksinə, parlament kralı çağırmışdı. Klarendon 1661-ci ildə İcmalar Palatasına demişdi: "Millətin içindən seçilə biləcək ən zəngin və ən müdrik şəxslər tərəfindən təmsil olunmaq İngiltərənin sıravi xalqının imtiyazı və üstünlüyüdür. İyirmi il sonra II Çarlz demişdi: "Monarxiyanın təhlükəsizliyi və ləyaqəti olmadan nə dini, nə də mülkiyyəti qorumaq olar." Bu restavrasiya sadəcə kralın qayıdışı deyil, həm də torpaq sahibi olan zadəganların öz hakimiyyətini qanuni şəkildə möhkəmləndirməsi idi. II Çarlzın oğlu Monmutun üsyanından sonra II Ceyms ordunun sayını artırmaq qərarına gəldi. Bu ordunun zabitləri onun etibar etdiyi adamlardan, yəni əsasən katoliklərdən ibarət olmalı idi.

58. Mənbədə bəhs edilən restavrasiyanı həyata keçirən parlamentin ilk qərarını tarixi biliklərinizə əsasən müəyyən edin:

59. Mənbədə bəhs edilən kralın hakimiyyətə gələrkən verdiyi vədləri tarixi biliklərinizə əsasən müəyyən edin: (azı iki vəd)

60. Mənbədə bəhs edilən II Ceymsin hakimiyyətdən uzaqlaşdırılmasının səbəbini tarixi biliklərinizə əsasən müəyyən edin.

TheBilikTeam1

## Ədəbiyyat

61. Cədvələ əsasən M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah" əsəri haqqında ***yanlış*** fikri müəyyən edin.

| Şəhrəbanu xanım | Şərəfnisə xanım |
|---|---|
| A) Şahbaza nə yolla olur-olsun əngəl olacağına and içir. | D) Şahbazın verdiyi şəkilləri anasına göstərmir. |
| B) Əsərdə avamlığına görə tənqid olunur. | E) Müsyö Jordanın boynunun vurulmağına razı olsa da, anası razılaşmır. |
| C) Parisin cinlər, ifritələr tərəfindən dağıdılmasına inanır. | |

62. "Namərd gülləsi" (İ.Şıxlı) əsərinə əsasən ***yanlış*** fikri müəyyən edin.
A) Mürşüd əsl simasını büruzə verir, ona yardım etmiş insanın qatilinə çevrilir.
B) Mürşüd ona edilənləri unudur, hətta ailəsinə qarşı belə etinasız davranır.
C) Əsərdə iki dünyagörüşü, iki həyat mövqeyi qarşı-qarşıya qoyulur.
D) Əsərdə qoyulan ideya bütövlükdə Mürşüdün simasında əyaniləşdirilir.
E) Niftalı və Kərəmin düşmənliklərini unutmasının kökündə milli-mənəvi dəyərlər dayanır.

63. Verilən misralarla başlayan "Dağlar" şeirləri üçün ortaq cəhətdir:
*A – "Bahar fəsli, yaz ayları gələndə..."*
*B – "Bir ay yarım novbahardan keçəndə..."*
A) Lirik qəhrəman əsərin sonunadək dərin kədər içində olur.
B) Şeirdə dağ adlarına rast gəlinir.
C) Dağların heç kimi dindirib kefinə dəymədiyi deyilir.
D) Dağların insanları bir-birindən ayrı tutmadığı fikri vurğulanır.
E) Şeirdə şairin özünə müraciəti yoxdur.

64. "Qaytar mənim qüdrətimi, Azərbaycan!" (X.R.Ulutürk) şeirinə aid doğru fikri müəyyən edin.
A) Lirik qəhrəman altı milyard insanlıq qarşısında tək qaldığını vurğulayır.
B) İstiqlal və azadlığa çağırışa yer verilən əsərdə satirik məqamlar da əks olunub.
C) Əsərdə Qarabağ faciəsinin dəhşətlərini unutmamaq tövsiyə edilir.
D) Lirik qəhrəman özünü yalnız gələcəyə aid edərək gələn zamanlara olan bağlılığını ifadə edir.
E) Əsərdə müharibədən doğan bədbin ruh aparıcıdır.

65. R.Rzanın "Qızılgül olmayaydı" poemasında ***rast gəlinməyən*** məqamları müəyyən edin.
1. Repressiya qurbanı olan yaradıcı insanların qisasının alınmasına
2. Nimdaş geyimi ilə təqdim olunan bədbəxt qadının müəllifin evinə gəlməsinə
3. Vədələşib ayrılan dostların növbəti görüşünə
4. Totalitar rejimin qeyri-insani siyasətinin ifşasına
5. Əsərin müəllifinin özünü məzəmmət etməsinə
A) 2,5 B) 3,4 C) 4,5
D) 1,3 E) 2,3

66. Verilən əsərlərin heç birinin məzmununa ***aid olmayan*** fikri müəyyən edin.
*1) "Badi-səba, mənim dərdi-dilimi" (Q.Zakir)*
*2) "Durnalar"(Q.Zakir)*
A) Lirik qəhrəman qəm əlindən xəstə olub.
B) Lirik qəhrəman gecə-gündüz canan deyib ağlayır.
C) Lirik qəhrəman bir müddətdir ki, qürbət diyardadır.
D) Lirik qəhrəman düşdüyü eşqə görə qınağa məruz qalır.
E) Lirik qəhrəman səhər yelindən halının necəliyini yara deyib-demədiyini soruşur.

67. C.Novruzun "Mən bizim anaları günəşlə tən tuturam" şeiri ilə bağlı doğru fikri müəyyən edin.
A) Heç kəsə boyun əyməyən lirik qəhrəman yalnız ana qarşısında əyilir.
B) Müəllif oğulun üzündəki gülüşü, yerişi ananın verdiyini vurğulayır.
C) Şair anaları ucaldır, onları dağ zirvəsi adlandırır.
D) Analar bəstəkar və şair adlandırılır.
E) Lirik qəhrəman anaya itaətdə özünü rahibə bənzədir.

68. "Zəhər" (İ.Hüseynov) hekayəsinə aid doğru fikri müəyyən edin.
A) Yazıçının narahat edən problemlərdən biri mənən çürük olanların ətrafa zəhər saçmasıdır.
B) Daşdəmirin kürəkəni raykom katibi idi.
C) Mirqasım qürurunu sındırıb Daşdəmirdən yenə süd istəsə də, o etiraz edir.
D) Meşəbəyi büruzə verməsə də, meşənin su altında qalmasında oğlanlarını günahkar bilir.
E) Daşdəmirin övladları meşənin məhvinə çalışanlardandır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

69. “Qarabağda” (H. Ziya) şeiri ilə bağlı biri ***yanlış*** fikri müəyyən edin.
A) Beli üzükdən keçən incələr Qarabağda – misrasında litota işlənmişdir.
B) Şeirdə nikbinlik, nikbin ruh aparıcıdır.
C) Şeirin bütün bəndləri beşlik şəklində deyil.
D) Qarabağın düşmən tapdağı altında olması ürək ağrısı ilə yad edilir.
E) Qarabağ təbiətin varı, sərvəti kimi mənalandırılır.

70. “Vaqif” dramında obrazların xalqa münasibətində ***uyğunsuzluğu*** müəyyən edin.

| **Qacarın münasibəti** | **Vaqifin münasibəti** |
|---|---|
| 1. Günahsiz insanların qanına bais olur.<br>2. Yanına aman diləməyə gələn qocanı alçaldır, təhqir edir.<br>3. Xalqının dilinə hörmət edir. | 4. Gürcüləri hörmətlə qarşılayıb qonaq edir.<br>5. Xalqa can yandırır.<br>6. Eldara olan münasibəti xalqa olan münasibəti kimi mənalandırmaq olmaz. |

A) 3,5,6 B) 1,2,6 C) 3,4,6
D) 3,4,5 E) 1,3,5

71. “Aldanmış kəvakib” əsərində “Şah Abbas” obrazı ilə bağlı doğru fikri müəyyən edin.
A) Yumoristik obraz kimi qələmə alınıb.
B) İslahatları ilə xalqın rəğbətini qazanıb.
C) Yenidən taxta çıxarkən əvvəlki dövlət qurumundakı bütün şəxslər yanında olur.
D) Bütün kəndlərin əkin yerlərini xarab etmək, körpüləri dağıtmaq, yolları pozmaq əmrini verib.
E) Övladlarına qarşı da zülmkar olub.

72. “Heydərbabaya salam” əsərinin bədii forması ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Poema janrında yazılıb.
B) Qafiyə quruluşu aaabb formasında olduğundan müxəmməs hesab olunur.
C) Təhkiyə əsasında qələmə alınmayıb.
D) Şairin uşaqlıq xatirələrinin təqdimində kiçik süjet əlamətləri nəzərə çarpır.
E) Misralarda heca sayı 11-dir.

73. “Qurbanəli bəy” əsərinin məzmunu ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Naçalnikin kəndə gəlməsinin səbəbi pristavın xanımının ad günü idi.
2. Naçalnikin arvadı bəyin yaxşı bir müsəlman plovu verəcəyi təqdirdə qonaq getməyə razı olacağını deyir.
3. Qurbanəli bəy evdəki digər atını naçalnikə peşkəş demişdi.
4. Qurbanəli bəyin evinə gələndə atlara baxmaq təklifini naçalnik verir.
5. Məclisdə Qurbanəli bəyin sağlığına içiləndən sonra bəy onları qonaq çağırır.
A) 1,4,5 B) 1,2,3 C) 2,4,5
D) 1,3,4 E) 2,3,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

74. “İblis” (H.Cavid) faciəsinə əsasən ***yanlış*** fikirləri müəyyən edin.
1. Əsər müharibə əleyhinə yazılmış və əsərdə təsirli hərb səhnələrinə yer verilib.
2. İblis mifik obrazdır, onun tərəfindən insanların müharibələrə qoşulma səbəbi aydınlaşdırılır.
3. Son pərdədə Rəna Arifi deyil, Vasifi seçdiyi üçün Arif qardaşı Vasifi öldürür.
4. İblis özünü şərqdə abid, qərbdə rahib, bir çoban, zülmkar sultan kimi təqdim edir.
5. Əsərdə müharibələrin törədilmə günahı, səbəbi ümumi olaraq İblisdə görülür.
A) 2,3,5 B) 2,3,4 C) 3,4,5
D) 1,3,5 E) 2,4,5

75. M.Cəlalın “Açıq kitab” romanına aid doğru fikri müəyyən edin.
1. Satirik roman olan bu əsərdə müəllif obrazların danışığında özünüifşa modelindən yararlanıb.
2. Müəllif əsərdə sovet dövründə olan mənfi meyilləri ifşa etmiş, müsbət tərəflər olmadığından fikir bildirməmişdir.
3. Vahidin yenidən universitetə dönməyinin Gəldiyev rüşvət hesabına olduğunu dilə gətirirdi.
4. Gəldiyev məcburi də olsa, Vahidi və atasını hörmətlə qəbul edib köhnə əmri dəyişdi.
A) 2,4 B) 1,3 C) 3,4
D) 1,2 E) 1,4

76. “Əsir Azərbaycanım” (A. İldırım) əsərinin məzmununa aid doğru fikri müəyyən edin.
A) Əsər nikbin ruhda qələmə alınmışdır.
B) Şeir beşlik şəklində, müxəmməs janrında yazılıb.
C) Vətənin ana kimi təsvir edildiyi əsərdə lirik qəhrəmanın taleyindən məmnunluğu əks olunub.
D) Lirik qəhrəman doğma vətənin acı taleyindən sarsılaraq xalqı üsyana, bu sərsəm gedişi dayandırmağa səsləyir.
E) Lirik qəhrəman xalqının azadlıq mübarizəsinə qalxmasını arzu edir.

77. “Anamın kitabı” (C. Məmmədquluzadə) əsərinin məzmunu ilə bağlı doğru fikri müəyyən edin.
A) Övladların hər biri evdən getmək arzusunda idi.
B) Zəhrabəyim ana oğlanlarının birləşə bilməyəcəyini dərk etdiyi üçün getməklərinə mane olmur.
C) Qardaşlar Zəhrabəyim ananın istəyi ilə təhsil alıblar.
D) Rüstəm bəy senzordan sonra onun davranışlarının yanlış olduğunu ifadə edir.
E) Əsərdə çar hökumətinin narahatlığı ifadə olunub.

78. M.Ə. Sabirin "Əkinçi" və "Neylərin, ilahi?" əsərləri üçün ortaq fikri müəyyən edin.
A) Yalnız Azərbaycan həyatı ilə məhdudlaşmır – ümumbəşəri xarakter daşıyır.
B) Şair cəmiyyətdəki haqsızlıqlara qarşı etiraz səsini ucaldır.
C) Uzun və qısa hecaların bir-birini izləməsi prinsipi ilə yazılmışdır.
D) Əsərdə tipi öz dili ilə tənqidi üsulundan istifadə olunub.
E) Əsərdə məzlum obrazın ömrü heyvan ömrünə bənzədilir.

79. "Müsibəti-Fəxrəddin" faciəsinə aid ***yanlış*** fikirləri müəyyən edin.
1. Vəli qalada axrıncı yaradan ölür.
2. Fəxrəddini Əhməd öldürür, Əhmədi isə Şahmar öldürür.
3. "Mənim əlim qurusun, əgər belə cavana mənim əllərim qalxsa" – nitqi Mahmud bəyə aiddir.
4. Əsərdəki atalar sözü, məsəllər, obrazlı ifadələr pyesin dilini canlı danışıq dilinə yaxınlaşdırmışdır.
A) 1,2 B) 2,4 C) 1,3
D) 2,3 E) 1,4

80. İ.Şıxlının "Dəli Kür" əsərinə əsasən ***yanlış*** fikri seçin.
A) Cahandar ağa romanın sonlarında Mələyi qaçırtmaqda səhv etdiyini anlayır.
B) Şamxal evə gələn kimi bacısı olanları danışır.
C) Zərnigar obrazı qürurlu obraz hesab edilməsə də, Mələyin günü gətirilməsini laqeydliklə qarşılamır.
D) Əhməd və Çerniyevskinin simasında maarifçilik özünü göstərir.
E) Molla Sadıq bütün məqamlarda milli birlik hissindən məhrum deyildi.

81. İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərində obrazlardan birinin həyata baxışına uyğun fikir ***verilməyib***.
A) Azərbaycan dili şərqin fransız dili hesab oluna bilər. – Aleksandr Düma
B) Əgər xalqın taleyindən şeir yazsa, çalışar ki, xalqa çətinlikdən çıxış yolu göstərsin - S. Hüseyn
C) Əgər xalqımız farslaşdırılsa, sevinər – Məliküldövlə
D) Əgər yaşadığı ərazidə məktəb olmasa, öz hesabına məktəb binası tikdirə bilər – X. Natəvan
E) Xurşidbanunun dağıstanlı bir ləzgiyə ərə getməsi bizim qüruru milliyyətimizi təhqir etməkdir. – Zahir bəy

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

82. "Nurəddin" (S.S.Axundov) hekayəsinin məzmununa aid doğru fikri müəyyən edin.
A) Əmiraslan quldurluq etdiyi üçün divan tərəfindən tutulub zindana atılır.
B) Rəhim Nurəddini görən kimi tanıyır və evə gətirir.
C) Gülpəri kəndə gedərkən Baharı da aparırdı.
D) Gülpərinin Nurəddinə qarşı xoş davranmasının səbəbi atasından ona qalan miras idi.
E) Hacı Nəsirin etdiyi yaxşılıq elə öz qabağına çıxır.

**Açıq tipli test tapşırıqları:**

83. "Səslı qız" əsərinə əsasən doğru fikirləri müəyyən edin.
1. Yüksək təbəqə nümayəndələri qalib şahı yaltaqlıqla qarşılayır.
2. Ölkə işğal olduqdan sonra məğlub şahın taleyi bilinmir.
3. Mühasirənin ardından ölkə alınır və düşmənlər insanlara ağlamağı qadağan edir.
4. Qalib şah xalq üsyanından sonra ölkədən qaçır.
5. Sara Arqunun son nəfəsində yanında olur və qisasını alacağına söz verir.

84. "Vətən yaraları" (M. Cəlal) əsərində hadisələrin ardıcıllığını müəyyən edin.
1. Tibb bacısı baş həkimin tapşırığına görə yaralı əsgərin heç kəslə görüşməsinə icazə vermək istəmir.
2. Yaralı əsgərin arxaya – xəstəxanaya göndərilməsini eşidib dostları yanına gəlir.
3. Yaralı əsgər xəstəxanadan çıxdıqdan sonra anasını görmək üçün evlərinə gedir.
4. Lətifin sağalıb hissəyə qayıtmağı iki ay yarım çəkir.
5. Yenidən hissələrinə qayıdan əsgər öz dostlarını orada tapmır.

85. "Koroğlu" eposu haqqında ***yanlış*** fikirləri müəyyən edin.
1. Şöhrət qazanmaq xalqa arxalanan, ondan güc, qüdrət alan Koroğlunun təbiətinə xasdır.
2. Qadın surətlərin əksəri yuxarı təbəqə qadınlardır.
3. Dastanın mənbəyi tarixi hadisəyə dayanır, bütövlüklə tarixilik aparıcıdır.
4. Koroğlunun düşmənləri onu məhv etmək üçün ağlagəlməz hiylələrə əl atır.

86. M. Hadinin "Türkün nəğməsi" şeirinə əsasən doğru fikirləri müəyyən edin.
1. Türk xalqlarının qorxmazlığı qeyd edilmiş, verilən itkilərin hədər olmayacağına inam ifadə edilmişdir.
2. Birinci Dünya müharibəsinin türklərə gətirdiyi fəlakətlər öz əksini tapıb.
3. Xalq siyasi məqsədlər naminə qurban verilmişdir.
4. Əsər istiqlal uğrunda mübarizəyə çağırış motivindədir.
5. Əsərin ana xəttinə ağır itkilərdən doğan bədbin ruh hakimdir.

87. Uyğunluğu müəyyən edin ("Oqtay Eloğlu").
1. Konflikt
2. Problem
3. Mövzu
a. Mədəni tərəqqi və inkişaf etmiş xalqlarla bir cərgədə dayanmaq
b. Milli teatr yaratmaq idealı qarşısında düşüncə geriliyinin güclü olması
c. "Yüksək" təbəqə nümayəndələrinin həyat idealının pul vəzifə şöhrət olması
d. Burjua cəmiyyəti ilə milli mənafe uğrunda çarpışan həqiqi ziyalıların mübarizəsi
e. Yerli və yadelli ağaların Oqtay kimilərə qarşı apardığı siyasi mübarizənin mövcudluğu

***Zəhmətsiz yüksəliş***

Rauf Səlimov həyatın sərt, amansız küləkləri arasında yolunu itirənlərdən deyildi. O, küləyi də, tufanı da özünə ram edən, onu öz yelkəninə çevirən bir adam idi. Onun baxışları sakit gölün aynası kimi şəffaf görünərdi, amma o aynanın altında qaranlıq, dibsiz bir dünya gizlənirdi. Səthi sakitlik, dərinlikdə fırtına kimi idi. Elə onun özü də bu ziddiyyətin canlı təcəssümü idi.

O, sözləri şəkərə batırılmış zəhər kimi təqdim edərdi. Danışanda dilindən bal damardı, amma bu balın içində görünməz tikanlar gizlənərdi. Tərif edəndə səmanı yerə endirər, susanda isə adamı yerə gömərdi. Bəzən sözlə ucaldar, bəzən sükutla yıxardı.

İdarəyə gəlişi guya təsadüf idi, amma bu "təsadüf" çox hesablanmış bir oyunun səssiz başlanğıcı idi. Müdiri üçün o, sədaqətli bir kölgə idi. Lakin bu kölgə işığı udmağı, günəşi belə özünə tərəf çəkməyi bacarırdı. Rauf Səlimov başqalarının zəhmətini ipək kimi toxuyub öz adına libas tikirdi. Bu, parlaq, gözqamaşdıran, amma içi boş bir libas idi.

Onun "elmi nailiyyətləri" uzaqdan möhtəşəm, yaxından isə əriyən, dağılmağa məhkum buzdan saray kimi idi. İstedadlı insanların fikirlərini oğurlamaq onun üçün nə çətin idi, nə də ayıb. Sanki başqasının işığını cibinə qoyub öz günəşi kimi təqdim edirdi. Fikir oğurlayırdı, zəhmət oğurlayırdı, uğur oğurlayırdı . Amma yenə də özünü "yaradıcı" adlandırırdı.

Rauf Səlimov üçün dünya bir yarış meydanı idi: ya sən qaçacaqsan, ya da səni tapdalayacaqlar. Yerində qalan insan unudular. O isə unudulmaq istəmirdi. Ona görə də daim hərəkətdə idi: külək kimi görünməz, kölgə kimi səssiz, ilan kimi sürüşkən.

Vicdan onun üçün çoxdan susmuş bir səs idi. Sanki içində danışmaq istəyən, amma boğulan bir adam vardı. O səsi eşitmirdi, eşitmək istəmirdi, eşitməkdən qorxurdu. Çünki bilirdi: bir dəfə o səs danışsa, qurduğu bütün saxta dünya bir anın içində çökər.

88. Cədvəli tamamlayın.

| ***Obrazlar*** | ***Hər iki obrazın xarakteri ilə bağlı ortaq xüsusiyyətlər*** |
|---|---|
| Rauf Səlimov | 1. |
| "Açıq kitab" romanında xarakter uyğunluğu olan obraz: ? | 2.<br>3. |

89. Mətnə əsasən cədvəli doldurun.

| ***Bədii təsvir və ifadə vasitələri*** | ***Əsərdən nümunə*** |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |
| 4. | |

90. Əsərin forma xüsusiyyətləri əsasında cədvəli tamamlayın.

| ***"Zəhmətsiz yüksəliş"*** | ***C. Novruz "Mən bizim anaları günəşlə tən tuturam"*** |
|---|---|
| 1. | 3. |
| 2. | 4. |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı